## «Kassa qalığı» anlayışı və nağd pulların hesabatlarda təsviri

***Qulu Soltanov,***
sərbəst auditor

əvvəli ötən sayımızda

Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən İ-07 nömrəli, 13 yanvar 2009-cu il tarixdə təsdiqlənmiş və Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 30 yanvar 2009-cu il tarixdə dövlət qeydiyyatına alınmış «Dövlət büdcəsindən maliyyələşən təşkilatlarda kassa əməliyyatlarının aparılması Qaydaları» hazırda hüquqi qüvvədədir. Lakin bu Qaydalar «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikası Qanununa, «Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə»yə əsasən dövlət büdcəsindən maliyyələşən təşkilatlarda kassa əməliyyatlarının aparılması, müvafiq banklardan alınmış nağd pulların kassaya mədaxili, məxarici əməliyyatlarının müvafiq qaydada sənədləşdirilməsi, nağd pulun təyinatı üzrə xərclənməsinin təmin edilməsi məqsədilə hazırlanmışdır və büdcədən maliyyələşən təşkilatlara şamil edilir. Yəni sadə dildə desək, bu Qaydalar, adından göründüyü kimi, sırf dövlət mülkiyyətində olan təşkilatların və müəssisələrin fəaliyyətinə tətbiq olunması üçün nəzərdə tutulub.

Bu Qaydalar xüsusi mülkiyyət növünə malik bütün digər kommersiya təşkilatlarına (ASC, QSC, MMC, kiçik müəssisə), qeyri-kommersiya (QHT) təşkilatlarına, fərdi sahibkarlara, kiçik sahibkarlıq subyektləri olan müəssisələrə şamil edilmir, şamil edilmədiyinə görə də göstərilən təsərrüfat subyektlərinə kağız daşıyıcısı formasında kassa kitabının tərtib olunmaması, kassada böyük məbləğdə nağd pulun saxlanılması, kassada yığılan nağd pulun bank hesabına qoyulmaması, kassada qalan pulun təhtəlhesab şəxsə evdə saxlanılmaq üçün verilməsi, ümumi qaydada olmayan kassa məxaric orderlərinə oxşamayan, məsələn, adi qaydada aktla pulun verilməsi, kassa otağının və ya dəmir seyfin olmaması qanun pozuntusu hesab edilməməlidir.

Misal. Kassa qalığı dedikdə, adətən kassa qalığının hər ayın 1-nə olan vəziyyəti nəzərdə tutulur. Müasir dövrdə şəxslər arasında baş verən iqtisadi-mülki münasibətlər azad şəraitdə, istənilən vaxt, tərəflərin öz arzusu ilə qurulur. Fərz edək ki, hesabat ayının 31-i həftənin şənbə gününə düşür və məhz sizin müştərinizin sizdən aldığı məhsulun haqqını (dəyərini) yalnız həmin gün ödəmək imkanı vardır və həmin gün də sizdən kassa mədaxil orderinin qəbzini istəyir. Əks halda, müştəri 20 gündən sonra sizə pul ödəyə bilər. Şənbə günü banklar işləmir və deməli, müştəridən alınacaq pulun banka ödənilməsi də mümkün deyil. Üstəlik, kassa qalığına limit qoyulsa idi, siz müştəridən öz halal pulunuzu almaqdan məhrum ola bilərdiniz. Bu isə sahibkarlığa maneə yaradan bir proses - məhdudlaşdırma olardı. Deməli, qanunvericilik tələbi kimi kassa qalığına hər hansı limitin qoyulması düzgün ola bilməz. Digər tərəfdən, pul əmlakdır. Pulun üzərində tam mülkiyyət (sərəncam, sahiblik və istifadə) hüququ pulu əldə edən şəxsdədir. Mülkiyyət isə dövlət tərəfindən qorunur və tanınır.

Müəyyən müddətlər üzrə kassa qalığının məbləği müəssisə ilə bank arasında bağlanılan müqavilədən asılı ola bilər. Bank öz müştərisi ilə bank xidmətlərinin göstərilməsinə dair bağladığı müqavilədə bankdan götürülən nağd vəsaitin müqavilə üzrə müəyyən olunmuş müddətdə xərclənmədiyi halda geri qaytarılması şərtini qoya bilər.

Yalnız zəmanətli, təminatlı, operativ və elektron formada nağdsız hesablaşma üsullarının tətbiqi nəticəsində formalaşan islahatlar şəxsləri nağd əməliyyatları aparmaqdan uzaqlaşdıra bilər.